Xalq qəzeti.-2021.- 21 dekabr.- S.9

***Azərbaycan Prezidenti İlham Əliyev bir müddət əvvəl elan etdiyi kimi, yeni sosial islahatlar paketini təqdim etdi. Bu məqsədlə dövlət başçısı artıq bir neçə fərman və sərəncam imzalayıb. Bu yeni islahatlar mərhələsi - 2022-ci ilin sosial islahatları dövlət başçısının "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" 2021-ci il 16 oktyabr tarixli sərəncamına əsasən reallaşdırılır. Yeni ildən tətbiq ediləcək bu islahatlar üçün illik əlavə 1,5 milyard manat vəsait nəzərdə tutulub. İslahatlar, ümumilikdə, 2,1 milyondan çox şəxsi əhatə edəcək.***

# Vətəndaş rifahının təminatı dövlət siyasətinin əsas istiqamətlərindən biridir



Prezident İlham Əliyevin bu il dekabrın 17-də imzaladığı sərəncamla minimum aylıq əməkhaqqının məbləği artırılaraq 250 manatdan 300 manata çatdırıldı. Sərəncam 1 yanvar 2022-ci ildən tətbiq ediləcək. Elə həmin vaxt elan olundu ki, minimum əməkhaqqı artımı dövlət sektoru üzrə 400 min, özəl sektor üzrə də eyni sayda – 400 min nəfər olmaqla, ümumən 800 min işçini əhatə edəcək.

Qeyd edək ki, Azərbaycan Prezidentinin sərəncamları ilə minimum əməkhaqqında mütəmadi artımlar davamlı xarakter alıb. Son üç ildə minimum aylıq əməkhaqqı 2,3 dəfə artırılaraq 130 manatdan 300 manata çatdırılıb. Bu, əhalinin gəlirlərində artımı təmin etməklə yanaşı, işçi qüvvəsinin rəqabət qabiliyyətinin, əmək məhsuldarlığının artmasını, əməyin leqallaşdırılmasını da stimullaşdırır.

Onu da deyək ki, gələn il minimum əmək haqqı 2022-ci il üçün nəzərdə tutulan yaşayış minimumunu (210 manat) 43 faiz üstələyəcək. Digər tərəfdən, bu artım ölkəmizdə xalis minimum əmək haqqının xalis orta aylıq əmək haqqına olan nisbəti göstəricisinin də növbəti dəfə yüksəlməsinə imkan verəcək. Son üç ildə həmin nisbət 2018-ci ildəki 26,5 faizdən 2022-ci ildə təqribən 40-41 faiz səviyyəsinə yüksələcək. Bununla da həmin nisbətin qabaqcıl beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində daha bir irəliləyişə nail olunur. Minimum əməkhaqqı artımı üçün illik əlavə maliyyə xərci 460 milyon manat təşkil edir.

Prezident İlham Əliyevin dekabrın 17-də imzaladığı iki sərəncamla 2022-ci il yanvarın 1-dən dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin maaşları orta hesabla 20, gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin maaşları orta hesabla 40 faiz artırılır. Bundan əlavə, dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin maaşları orta hesabla 20, gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin maaşları orta hesabla 40, fiziki tərbiyə rəhbərlərinin maaşları orta hesabla 30 faiz artırılır. Bu əməkhaqqı artımı 165 min təhsil işçisinə şamil olunmaqla, onların sosial müdafiəsinin gücləndirilməsi məqsədi daşıyır. Artımlar üçün dövlət büdcəsində 273 milyon manat illik əlavə vəsait nəzərdə tutulub.

Dövlət başçısının dekabrın 20-də imzaladığı yeni sərəncam və fərmanlarla müavinət və təqaüdlərin artırılması isə 732 min şəxsi, o cümlədən 132 min doktorant və tələbəni əhatə edərək onların müavinət və təqaüdlərinin 2022-ci ilin əvvəlindən artırılmasını təmin edir. Bu müavinət və təqaüd artımları üçün illik əlavə 200 milyon manat ayrılıb.

Əslində sosial sahədə addımlar Prezident tərəfindən bütün illərdə atılır. Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirədə dövlət başçısı bildirmişdi ki, keçən il sosial sahə ilə bağlı çox böyük işlər görülüb. Bu il də şəhid ailələri üçün daha böyük həcmdə evlərin verilməsi təmin edilməlidir. Bütövlükdə 9 mindən çox şəhid ailəsi dövlət tərəfindən evlərlə və mənzillərlə təmin edilib. Daha 1500 şəhid ailəsi üçün yeni evlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həllini tapıb. Bu proses 2021-ci ildə də davam etdirilib. Prezident deyib: "Vətən müharibəsində şəhid olmuş qəhrəman hərbçilərimizin doğmalarına, yaxınlarına evlər veriləcəkdir. Onu da bildirməliyəm ki, bundan sonra məcburi köçkünlər üçün evlər ancaq azad edilmiş torpaqlarda tikiləcək. Bəzi layihələr davam edir, bəzi layihələr başa çatmaq üzrədir. İndi Füzuli rayonunda, Horadizdə və başqa bir kənddə evlər tikilibdir, onlar, əlbəttə ki, köçkünlərə veriləcək. Ancaq bundan sonra daha Bakı şəhərində, Gəncə şəhərində, Sumqayıt, Mingəçevir şəhərlərində və hər hansı bir başqa yerdə köçkünlər üçün evlər tikilməməlidir. Köçkünlər, yəni keçmiş köçkünlər üçün evlər ancaq azad edilmiş torpaqlarda tikiləcək".

İkinci Qarabağ müharibəsində şəhid olan, yaralanan əsgərlərimizin ailələrinə dəstək verilməsi üçün də mexanizmlər hazırlanmışdı. Bundan əlavə, Prezidentin sərəncamına əsasən, yeni bir təqaüd - Vətən Müharibəsi Qəhrəmanına Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis olunmuş, onun məbləği 2000 manat müəyyən edilmişdi. Eyni zamanda, İkinci Qarabağ müharibəsi döyüşlərində iştirak etmiş və şəhid olmuş vətəndaşlarımızın ailələri ilə bağlı da addımlar atılmışdı.

Göründüyü kimi, ölkəmizdə vətəndaş rifahının təminatı, həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin siyasətinin əsas istiqamətlərindən biridir. Dövlət başçısının bugünlərdə imzaladığı yeni fərman və sərəncamlar da göstərir ki, bu istiqamətdə mütəmadi addımlar atılır. Bu isə son nəticədə vətəndaşlarımızın sosial rifahının daha da yaxşılaşmasına xidmət edir.

***Teymur ZEYNALOV,***
***iqtisad üzrə fəlsəfə doktoru***